Fərhad ELDAROĞLU

**Əlləri qırışlıdır, amma yenə də onlardan isti və etibarlı heç nə yoxdur. Onlara toxunanda mən hərarət hiss etdim - ana hərarəti. Övladları yaxşı yaşasınlar, tox və xoşbəxt olsunlar deyə, bu əllər bütün ağrı və soyuğu, həyatın bütün çətinlikləri və ağırlıqlarını öz üzərinə götürüb.**

# ANA



Bu oçerki yazmağa başlamazdan əvvəl uzun müddət düşünüb-daşındım, anamla bağlı xatirələri yada saldım. O, 2020-ci ilin oktyabrında dünyasını dəyişib. Mənimçün də, ailəm üçün də yeri dolmayacaq itkidir. Yalnız qan bağı ilə deyil, həm də ruhən bağlı olduğun doğma anadan daha qiymətli, daha yaxın kim ola bilər ki?! Mən onun evdə hamıdan tez qalxıb hamıdan sonra yatmaq qabiliyyətinə həmişə heyran qalmışam. Təbii ki, o da yorulurdu, amma həmişə hər şeyi çatdırmağa çalışırdı.

Atamla anam arasında indi həyatımızda çox nadir rast gəlinən qarşılıqlı anlaşma və sevgi var idi. Elə bunda da anamın müdrikliyi özünü göstərirdi. Sevən, xeyirxah, sərt, amma ədalətli qadın idi. Bir müddət əvvəl mənə dostumun anası ilə tanış olmaq nəsib oldu. Bu yaxınlarda biz onun bağında görüşdük və ətirli çay süfrəsi arxasında müxtəlif mövzularda uzun-uzadı söhbətlər, müzakirələr apardıq. İliq bir yay axşamı idi, dənizdən əsən külək isə xoş sərinlik gətirirdi. Sanki təbiət özü də səmimi söhbətimiz üçün şərait yaradırdı.

O mənə məndə heyranlıq oyadan nadir görünüş və xarakterin nümunəsi kimi göründü: Nazik qövsvari, aypara formalı qaşları azca yuxarı qalxıb. Geniş açılmış dalğın qonur gözləri buğda rəngli miniatür kirpiklərin altından baxdıqca sanki alov saçır. Ortaboyludur, yarıaçıq gülümsər solğun-çəhrayı dodaqları ürəkşəkillidir. Cazibədar yanaqlarında zəif nəzərə çarpan şux qəmzələri ona bir az da cəlbedicilik qatır. Azacıq uzunsov sima, qara saçlar və müdriklik nişanəsi alın. Hə, mən məhz belə deyərdim: müdrik alın. Düşünmək və yaratmaq, yaratmaq və düşünmək - fikrimcə, bu müdrikliyin hikməti bundadır. Zərif biləyində anasının hədiyyə etdiyi əl işi - dəri talisman var. Güləndə üzündə zəif nəzərə çarpan qırışlar əmələ gəlir. Amma bunlar onu yaşlandırmır, həttа əksinə, bu görkəmdə o, çox gözəl və doğmadır.

Eyzəngül Məhəmmədəli qızı Ağayeva - mənim dostumun anasıdır.

"İnsan ömrü eynilə çəmənlərə, meşələrə, çöllərə, bağlara, gölməçələrə, çaylara yağış səpələyən bulud kimidir. Bulud yağışını yağdırıb milyonlarla sünbülün dənini, kolun, ağacın yarpağını canlandırıb yeniləndikcə özü də durulur, şəffaflaşır. Yaxşı insanın həyatı da belədir: çoxlarına kömək edir, həyatını asanlaşdırır, doğru yola bələdçilik edir, təsəlli verir...". L.N.Tolstoyun bu sitatını bütünlüklə, doqquz (!) uşaq tərbiyə edən Eyzəngül bibiyə də aid etmək olar.

Mənə elə gəlir ki, onun şirin, gözəl, mehribanlıq yağan üzünə baxmadan yanından keçib getmək mümkün deyil. Torpağa atılan balaca alma toxumundan zamanla şirin, şirəli meyvələr verən ağac yetişdiyi kimi, Eyzəngül bibi də həyatın çətinlikləri və maneələrinə, kədər və sıxıntılarına sinə gərərək təbiətin ona bəxş etdiyi gücdən istifadə edib yetişmiş, çəkdiyi zəhmətlərin bəhrələri ilə insanları sevindirmişdir. Hələ də sevindirməyə davam edir.

Bəzən tutqun, düşüncəli görünür, amma onu daha yaxından tanıyanda xasiyyətindəki bənzərsiz canlılıq və şuxluğa şahid olmaq mümkündür. Eyzəngül xanımın təbəssümündə həmişə uşaqlara məxsus bir saflıq sezilir. Ola bilsin, ömrü boyu uşaq tərbiyə etməsi və uşaqlarla işləməsinə görədir, bəlkə də, sadəcə, ruhunun xeyirxah, saf olmasındandır. Şəfqət və xeyirxahlıq, cəsarət və doğruculluq, rəğbət və mərhəmət, çalışqanlıq və müdriklik bu heyrətamiz qadına xas olan keyfiyyətlərin yalnız kiçik bir qismidir. Onunla sevincini də, kədərini də paylaşmaq mümkündür. O, həmişə dinləyər, təsəlli edər, yaxşı bir məsləhət verər, hər şeyin yaxşı olacağına inandırar. Bu oçerki yazmağa başlamazdan əvvəl söhbət etməli olduğum övladları, çoxsaylı nəvələri, bacı-qardaşlarının uşaqları və şagirdləri onunla çox rahat olduqlarını danışdılar.

Eyzəngül bibi 1933-cü ildə İmişli rayonunda kəndli ailəsində doğulub. Orta məktəbi bitirdikdən sonra doğma kolxozda qalıb. Çox çətin dövr idi, müharibə yenicə qurtarmışdı. Ümumi vətənimizi qəhrəmancasına müdafiə edən kişilərin çoxu cəbhədən qayıtmamışdı. O zaman onların yerlərini hələ çox gənc olan oğlanlar və qızlar tutdu, o cümlədən Eyzəngül bibi.

Sonra - həyat tədricən qaydasına düşməyə başlayanda Eyzəngül xanım birlikdə doqquz (!) oğul-qız böyütdüyü, xoşbəxt ömür sürdüyü gələcək həyat yoldaşı və ömür dostu Qiyasla tanış olur. Eyzəngül və Qiyas Ağayevlərin bütün övladları Eyzəngül bibinin fəxr etdiyi namuslu və ləyaqətli insanlar kimi böyüdülər. O, yaşadığı hər günə sevinir və bunun üçün Allaha şükr edir. Uca Yaradan isə ona bu günə kimi 37 nəvə, 53 nəticə və bir kötücə bəxş edib.

"Həyatımda nə qədər çətinliyim olsa da, heç vaxt taleyimdən narazı olmamışam, şikayət etməmişəm," - deyir Eyzəngül xanım və davam edir, - "Müasir insan ona bəxş olunanın qədrini bilmir, öz təbii və mənəvi zənginliyini görmür, içindəki cövhəri üzə çıxarmır. O, ruhun daxili gücünü deyil, xarici amilləri və atributları qiymətləndirir. O, var etmək, yaratmaq və təkmilləşdirmək deyil, sahiblənmək istəyir". O əmindir ki, insan dünyanın öz ətrafında fırlandığını zənn etməməli və ehtiyacı olanlara kömək etmək imkanı varsa, bunu etməlidir.

"Ürəkdən və təmənnasız yaxşılıq edin. Zamanla bu, vərdiş halına gələcək. Hər imkanda kömək edin və gücsüzlərə imkanınız yetdiyi yardımı göstərin. Belə davranın və bilin ki, bu, ləyaqətli və nəcib davranışdır. Yalnız özü üçün yaşamaq eqoizmin, sinizmin ən yüksək həddidir" - Eyzəngül xanım bundan əmindir.

Bizim mürəkkəb, rəngarəng və daim dəyişən dünyamızda neqativ vəziyyətlər, obyektiv çətinliklər insanı sındıra bilir. Bəs ilk uğursuzluqda ümidsizlikdən qolun yanına düşürsə, nə etməli? Taleyin bütün zərbələrinə dözən gücü şəxsiyyət olmağı necə bacarasan? "Həyat öz şərtlərini diktə edir. Biz hamımız həyatın zərbələrinə məruz qalırıq, hamımız təəssüf də keçiririk, məyusluq da. Necə deyərlər, "həyat ağ və qara zolaqlardan ibarətdir, - Eyzəngül bibi davam etdirir, - Əgər hər şey sakit və mülayim axarda getsəydi, insan həyatı dadsız-duzsuz və darıxdırıcı olardı. İnsan öz ömür yolunda həyatın onun üçün hazırladığı sınaqlar və maneələrdən keçməlidir. Həyat - şəraitlə və hər şeydən öncə, özünlə mübarizədir. Hər zaman öz iç səsinizi və ürəyinizi dinləyin",- deyə, müdrik və çoxuşaqlı ana əminliyini bildirir.

Əlləri qırışlıdır, amma yenə də onlardan isti və etibarlı heç nə yoxdur. Onlara toxunanda mən hərarət hiss etdim - ana hərarəti. Övladları yaxşı yaşasınlar, tox və xoşbəxt olsunlar deyə, bu əllər bütün ağrı və soyuğu, həyatın bütün çətinlikləri və ağırlıqlarını öz üzərinə götürüb. "Ən ləyaqətli insan kim hesab olunur?" - Eyzəngül xanımdan soruşuram. Azca düşünərək cavab verir: "Ən ləyaqətli insan o insandır ki, başqalarından tələb etdiyini əvvəlcə özü edir, sonra isə öz etdiyini başqalarından tələb edir." Həqiqətən, müdrik insanla söhbət etmək böyük zövqdür.

Azərbaycanda, əslində elə hər yerdə qadın, ana həmişə ailənin ürəyi, ailə ocağının qoruyucusu, gözətçisi sayılıb. Ona şeirlər və poemalar, romanlar və pyeslər həsr olunur. Hər bir körpənin ilk tələffüz etdiyi söz "ana"dır. Ananın tərənnümü folklordan başlayır: "Torpağın insanları qidalandırdığı kimi, ana da uşaqlarını bəsləyir." Ana fədakarlığını filmlərdə göstərirlər, ana mehribanlığı və sevgisindən nəğmələr oxuyurlar. Analar günündə biz ən yaxın adamımızı təbrik edirik. Ana obrazı - bizim mədəniyyətimizdə əlahiddə yeri olan ən parlaq obrazdır.

Bir çox görkəmli adamlar elmdə, idman və ədəbiyyatda özlərinin ən yaxşı qələbələrini analarına həsr ediblər və həsr edirlər. Onlar başa düşürlər ki, ananın dəstəyi və xeyir-duası olmadan nəinki uğur qazanmaq, ümumiyyətlə, hər şey mümkünsüzdür. Haqqı olan mükafatları alarkən onlar çox vaxt təqdir və minnətdarlıqlarını öz analarına bildirirlər. Məgər dünyada kimsə anadan daha yaxın və qiymətli ola bilərmi?! O hər birimiz üçün ən doğma adamdır. Anamız bizə həyat bəxş edib və yalnız analar övladlarını onlar uğrunda hər şeyi qurban verəcək qədər çox sevirlər. Eyzəngül bibi Ağayeva da məhz belə bir anadır. O, maraqlı və əyləncəli, mehriban və ürəyiyumşaq, gözəl və xeyirxah, müdrik və işıqlı insandır. Amma məncə, ən əsası odur ki, o, həyatı, övladlarını, nəvələrini, nəticələrini, kötücəsini, şagirdlərini çox sevir, insanlara xeyirxah, səbrli, səxavətli olmağı öyrədir. Elə onun özü kimi. Çox istərdim ki, Eyzəngül bibi heç vaxt xəstələnməsin və uzun, uzun xoşbəxt ömür sürsün. Və bu, mənim dostumun anası haqqında danışmaq istədiklərimin yalnız kiçik bir qismidir.